

# 2026 Fevral






# 1




## Məsumiyyət muzeyi

Filmi olan kitablar

Orhan Pamuk

**Janr** Roman

Romanı oxuyarkən yalnız eşqlə deyil, evlilik, dostluq, şəhvət, ailə və xoşbəxtliklə bağlı bütün düşüncələrinizin yerindən oynadığını və hekayənin cazibəsindən heç ayrılmaq istəmədiyinizi görəcəksiniz. "Məsumiyyət muzeyi" oxucularına unudulmaz yuxular kimi yaddan heç çıxmayacaq sarsıdıcı bir hekayə danışır.

ISBN 978-9952-26-658-0
15.95 ₼




## Nexus

Yeni

Yuval Noa Harari

**Janr** Tarix Elm Texnologiya

Əsər bizləri Daş dövründən Süni İntellekt dövrünə qədər uzanan informasiya şəbəkələri boyunca bir səyahətə aparır. Və göstərir ki, miflərdən yazıya, çapdan internetə, mediadan süni zəka sistemlərinə qədər informasiya cəmiyyətləri formalaşdıran və idarə edən əsas qüvvə olub.

ISBN 978-9952-606-72-0
15.95 ₼




## Emosional zəka

Daniel Qoulman

**Janr** Psixologiya Özünüinkişaf

Amerikalı psixoloq Daniel Qoulman emosional zəkanı ailə və iş həyatında uğurun əsas amili sayır. Kitab hisslərimizi başa düşmək, kədər, qəzəb, stress və qorxunu idarə etməyi öyrətməklə "adi" zəka ilə müqayisədə üstünlük qazandırır. Kitab yalnız tələbələr və müəllimlər üçün deyil, valideynlər üçün də faydalıdır.

ISBN 978-9952-36-661-7
15.99 ₼




## Gecəyarı kitabxanası

Mett Heiq

**Janr** Roman Fantastika

Musiqi müəllimi Nora Sid həyatla ölüm arasında qəribə bir məkana-gecəyarı kitabxanasına düşür. Buradakı hər kitab onun fərqli seçimləri nəticəsində yaşaya biləcəyi alternativ həyatlar göstərir. Roman oxucunu seçimlərin məsuliyyəti, peşmançılıq, xoşbəxtlik və özünü qəbul mövzularında düşünməyə vadar edir.

ISBN 978-9952-38-669-1
14.99 ₼




## Sufinin 365 günü

Yeni

Sonya Makvani

**Janr** Roman

Meru kiçik bir şəhərdə yaşayan yetim qızdır. O, sari toxucusudur. İllər sonra uşaqlıq rəfiqəsi Zeytunla görüşür. Rəfiqələr Merunun sufi babası İbn-Ər-Reşiddən miras qalan evdə müəmmalı gündəlik tapırlar. Və hər şey bundan sonra başlayır. Bu gündəlik onların hər ikisinin həyatının gedişatını kökündən dəyişir.

ISBN 978-9952-600-44-5
11.95 ₼




## Taleyi intizam yazır
Rayan Holidey

**Janr** Şəxsi inkişaf

Əsər özünənəzarətin və intizamın gücünə həsr olunub. Müəllif stoik fəlsəfəsinin prinsiplərinə söykənərək göstərir ki, istedad və şans yalnız uğurun başlanğıcıdır. Kitabda antik dövr filosoflarından tutmuş müasir dövr liderlərinə qədər bir çox tarixi şəxsiyyətlərin həyatlarından nümunələr gətirilir.

ISBN 978-9952-606-77-5
14.95 ₼




## Bəyaz gecələr
Dünya Klassikləri

Fyodor Dostoyevski

**Janr** Roman

Xəyalpərəst bir oğlan Nastya ilə tanış olub ona aşiq olur, amma qız onu yalnız dost kimi görür. Bir müddət sonra Nastya onun sevgisini qəbul etsə də, əvvəlki sevgilisi qayıdanda onu tərk edir. Hekayə qarşılıqsız sevgi və insan ruhunun dərinliklərini əks etdirir.

ISBN 978-9952-362-67-1
11.99 ₼




## Mifologiya 101
Ketlin Sirs

**Janr** Tarix

Kitab sizi Odissey kimi macəralarla dolu səyahətə çıxarır. Troya müharibəsi, Perseyin Meduzanı öldürməsi kimi klassik mif hekayələrini təqdim edir. Aid, Prokrust, sirenalar və sfinks kimi qəribə mifik qəhrəmanlarla tanış olacaqsınız.

ISBN 978-9952-600-59-9
12.99 ₼




## İnsan zəkası və süni intellektin dialoqları
Əli və Çet

Yeni

**Janr** Roman Fantastika Distopiya

Kitab müasir idrak problemlərini insanla maşının birgə fəaliyyəti çərçivəsində araşdırır. Mətnlər problemin tarixi, indiki vəziyyəti və gələcək perspektivlərini qısa konspektlər şəklində təqdim edir. Əsər insan-maşın sintezinə əsaslanan “beşinci idrak tipi” ideyasını irəli sürür.

ISBN 978-9952-606-94-2
12.95 ₼




## Pollianna
Yeni

Elinor Porter

**Janr** Roman

On bir yaşlı Pollianna sadə və çilli bir qız olsa da, insanlara öyrətdiyi “Sevinc oyunu” ilə hər kəsin həyatını dəyişir. Bu oyunu oynayanlar problemlərini unudur, kədərli insanlar şən olur, bədxahlar isə xeyirxahlaşır.

ISBN 2000923387941
9.99 ₼




## Alisa güzgüarxası diyarda

Luis Kerroll

**Janr** Fantastika

Alisa bu dəfə güzgüdən keçərək güzgüarxası diyara düşür. Bu dünya şahmat lövhəsinə bənzəyir və sakinləri ağ-qara şahmat fiqurları kimidir. Bir xanadan digərinə səyahət edən Alisa yol boyu qeyri-adi və sehrli varlıqlarla qarşılaşır və həyəcanlı macəralar yaşayır.

ISBN 978-9952-36-439-2
6.99 ₼




## Balaca şəhzadə

Antuan de Sent-Ekzüperi

**Janr** Alleqorik hekayə

Balaca şahzadə Antuan de Sent-Ekzüperinin ən məşhur əsəri, alleqorik hekayə. İlk dəfə 6 aprel 1943-cü ildə Nyu-Yorkda çap olunub. Kitabda şəkilləri Ekzüperi özü çəkib. Bu illüstrasiyalar kitabın özü qədər məşhurdurlar, müəllifin özü və baş qəhrəmanlar tez-tez şəkillərə müraciət edir və hətta mübahisə edirlər.

ISBN 978-9952-38-736-0
6.99 ₼




## İnandırma psixologiyası

Robert B.Çaldini

**Janr** Özünüinkişaf

Müəllif elmi araşdırmalar əsasında inandırmanın altı əsas prinsipini və onların insan davranışına təsirini açıqlayır. Oxucu həm manipulyasiya üsullarını tanımağı, həm də təsir gücündən etik şəkildə istifadə etməyi öyrənir. Kitab insan davranışını anlamaq istəyən hər kəs üçün faydalıdır.

ISBN 978-9952-38-189-4
14.99 ₼




## Hər şey beyində başlar

Mümin Sekman

**Janr** Özünüinkişaf

Kitabın əsas ideyası sadə, lakin fundamental prinsipə söykənir: insanın taleyini dəyişdirən faktor ilk növbədə beynini necə idarə etməyi bacarmasıdır. Müəllif beyinin iş prinsiplərini izah edir, düşüncə səhvlərini, motivasiya boşluqlarını və davranış tərzləri arasındakı fərqləri təhlil edir.

ISBN 978-9952-38-554-0
6.99 ₼




## Sən möhtəşəm qızsan

Nadya Ross

**Janr** Uşaq ədəbiyyatı

Kitab hər bir gənc qıza öz gücünü və dəyərini anlamağa kömək edən ilhamverici bir bələdçidir. Əyləncəli və ruhlandırıcı bir əhvalatdır. Bu kitab hər bir qızın necə özünəməxsus və bacarıqlı olduğunu göstərir. Hər yaşda oxucuya öz həyat yolunda uğur qazanması üçün özünəinam və motivasiya aşılayır.

ISBN 978-9952-606-02-7
6.9 ₼




## Şəkər portağalı

Joze Mauru di Vaskonselos

**Janr** Roman

“Şəkər Portağalı” avtobioqrafik povestdir. Müəllif böyüklərin ağrı-acısını, dərdini yaşayan, həm də anlayıb yaşayan balaca oğlanın dili ilə öz acı xatirələrini danışır. “Kasıb atanın oğlu olmaq ən böyük bədbəxtlikdir” deyən balaca Zeze yalnız öz aləmində, xəyal dünyasında xoşbəxtdir.

ISBN 978-9952-36-970-0
9.99 ₼




## Bədən dili

Co Navarro

**Janr** Özünüinkişaf

Kitabda çoxlu elmi əsərlər, yazılar, müəllifdən sitatlar gətirilir, hər bir davranışın nə anlama gələ biləcəyini daha ətraflı və etibarlı şəkildə izah etməyə çalışılır. İnsan davranışları bütün təfərrüatı ilə təsvir olunur və bu davranışlarla bağlı müəllifin rastlaşdığı, müşahidə etdiyi maraqlı əhvalatlar nəql edilir.

ISBN 978-9952-36-631-0
11.95 ₼




## Şəhər yatarkən

Cəmşid Əmirov

**Janr** Detektiv

Kitaba müəllifin eyni adlı povesti ilə yanaşı, II Dünya müharibəsindən sonrakı illərdə Almaniyada çalışan azərbaycanlı çekistin həyatından bəhs edən "Mənim ilk məhəbbətim" povesti də daxil edilib. Hər iki əsərdə ötən əsrin kriminal və siyasi tablosu, müxtəlif tipli insan xarakterləri, köhnə Bakı mənzərələri öz əksini tapıb.

ISBN 978-9952-38-259-4
9.95 ₼




## AstroLove
Aytən Salami

**Janr** **Astrologiya** **Ulduz falı**

Kitab doğru partnyoru tapmaq və münasibətlərdə həqiqi uyğunluğu kəşf etmək üçün kosmik bir bələdçidir. Oxuyarkən həm öz daxili dünyanı, həm də potensial partnyorunu daha dərindən anlayacaq, sevgi həyatında ən doğru seçimləri etməyi öyrənəcəksən.

ISBN 978-9952-606-98-0
14.99 ₼




## Doğum xəritəsinin daxili inkişafımıza təsiri
Aişə Mustafayeva

**Janr** **Astrologiya** **Ulduz falı**

Müəllifin kitabda paylaşdığı məlumatlar illər ərzində topladığı müşahidələrə, praktiki təcrübələrə və mənə ən çox verilən suallara əsaslanır. Oxuduqca siz də astrologiyanın yalnız proqnoz verməkdən ibarət olmadığını, əslində insanın daxili dünyasını, potensialını və həyat yolunu anlamaqda güclü bir vasitə olduğunu hiss edəcəksiniz.

ISBN 978-9952-608-30-4
16 ₼




## Ayrılıq, ayrıldıq, ayrıyıq
Gülnar Yunusova

**Janr** **Şeirlər**

Hər kəs çox yaxşı bilir ki, heç bir istedadlı şəxs birdən-birə mükəmməl yazmır, bəstələmir, rəsm çəkmir və s. Mən istədim ki, ən yaxşı şeirlərimlə yanaşı ilk şeirlərimi də sizinlə paylaşım. Bunun üçün "İlk qələmə aldıqlarım" adlı kiçik bölmədə həmin şeirlərimi topladım.

ISBN 978-9952-600-71-1
11 ₼




## Kəndə gün çıxanda qayıdacağıq
Şərif Ağayar

**Janr** **Hekayə**

Qaçqın düşərgəsi yoluna burulub bir anlıq ayaq saxladım. Gördüyüm mənzərəni canıma hopdurmaq istəyirdim: yan-yörəsi nimdaş çadırlar, süzülmüş palazlar, rəngi qaçmış layçalarla örtülmüş, əllərində plastik vedrələr su maşınının yanına düzülüb növbəsini gözləyən qız-gəlinlər, dəlmə-deşiyindən gün şüaları süzülən talvarın altında dinməz, əlləri qoynunda, boynubükük durmuş kişilər..

ISBN 978-9952-608-30-4
16 ₼




## Əmək məcəlləsi

Qanun Nəşriyyatı

Janr Məcəllələr Qanunlar

22 yanvar 2026-cı il tarixinədən olan dəyişikliklər əsasında məlumatlar yenilənmişdir.

ISBN AB 022051

15 ₼




## Mülki Prosessual Məcəlləsi

Qanun Nəşriyyatı

Janr Məcəllələr Qanunlar

5 fevral 2026-cı il tarixinədən olan dəyişikliklər əsasında məlumatlar yenilənmişdir.

ISBN AB 022051/İN 0526

20 ₼




## İran neftin kölgəsində

Cəmil Həsənli

Janr Siyasət Tarix

Burada 1949-cu ildə şaha sui-qəsd edilməsindən və “Milli Cəbhə” yaradılandan 1953-cü ilin avqustunda həyata keçirilən dövlət çevrilişinə qədər İranda baş verən dramatik hadisələrdən söhbət açılır.
Əsərin mərkəzi siması Məhəmməd Müsəddiqdir.

ISBN 978-9952-606-78-2

16.95 ₼




## Gizli cinayətlər

İlham Tumas

Janr Siyasət Tarix

Kitabda Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin arxiv materialları əsasında müxtəlif vaxtlarda və mövzularda aparılmış araşdırmalar yer alıb. Kitabdakı sənədlər və fotolar ilk dəfə oxuculara təqdim olunur.

ISBN 978-9952-38-742-1

15 ₼




## Yuval Noa Hararinin “Nexus”

əsəri bizləri Daş dövründən Süni İntellekt dövrünə qədər uzanan informasiya şəbəkələri boyunca bir səyahətə aparır. Və göstərir ki, miflərdən yazıya, çapdan internetə, mediadan süni zəka sistemlərinə qədər informasiya-cəmiyyətləri formalaşdıran və idarə edən əsas qüvvə olub.
Bu kitab sadəcə texnologiyanın inkişafını deyil, onun ictimai quruluşlara, siyasi güclərə və etik prinsiplərə təsirini də təhlil edir.

**“Nexus” həm tarixi bələdçi, həm də bir çağırışdır oxucunu-informasiya üzərindəki güc münasibətlərini dərk etməyə və onları daha ədalətli şəkildə təşkil etməyə səsləyir.**

+994 10 265 14 81

www.qanun.az

bookorder@qanun.az